İNSTİTUSİONAL İNKİŞAF

Qanunvericilik islahatından peşəkar özünüidarəetməyə

Azərbaycan Qiymətləndiricilər Palatasının institusional inkişafı qiymətləndirmə fəaliyyətinin peşəkar, şəffaf və qanuna əsaslanan tənzimlənməsi məqsədilə aparılmış islahatlarla bağlıdır. 8 dekabr 2023-cü il tarixli "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanun qiymətləndiricilərin məcburi üzvlüyü əsasında fəaliyyət göstərən, özünüidarəetmə prinsipinə söykənən qeyri-kommersiya hüquqi şəxs kimi Palatanın hüquqi əsasını müəyyən etmişdir (18.1–18.3-cü maddələr).

Qanunun 27-ci maddəsində Palatanın təsis edilməsi üçün təşkilat komitəsinin yaradılması, ixtisas imtahanlarının keçirilməsi, təsis hüququ qazanmış qiymətləndiricilər tərəfindən Palatanın təsis edilməsi, rəhbər və intizam orqanlarının seçilməsi ardıcıllığı nəzərdə tutulmuşdur.

Təsis və idarəetmə institutlarının qurulması

DİM tərəfindən ilkin ixtisas imtahanı 27 oktyabr 2024-cü ildə keçirilmiş, 30 noyabr 2024-cü ildə təsis konfransında Rəyasət Heyətinin rəhbərliyi və üzvləri, eləcə də İntizam Komissiyasının rəhbərliyi və üzvləri seçilmişdir. Palatanın rəsmi fəaliyyətə başlaması 27 yanvar 2025-ci il tarixdəndir. Bu mərhələdə peşə özünüidarəetməsi və intizam nəzarəti üçün təşkilati baza yaradılmışdır.

Qanunun 19-cu və 20-ci maddələri Ümumi Yığıncaq və Rəyasət Heyətinin səlahiyyət bölgüsünü müəyyən edir. Palatanın qərarvermə və icra mexanizmlərinin inkişafı məhz bu bölgünün qorunmasına əsaslanmalıdır.

Reyestr, şəffaflıq və peşəkar təmsilçilik

İlkin fəaliyyət mərhələsində Palatanın üzvü olan qiymətləndiricilər barədə reyestr məlumatlarının ictimaiyyət üçün təqdim edilməsi, qiymətləndirici təşkilatlar barədə məlumatların sistemləşdirilməsi, vətəndaş və peşəkar qəbulların təşkili institusional şəffaflığın mühüm elementləri kimi formalaşmışdır. Qanunun 18-ci maddəsi Palataya üzvlərin hüquqlarını müdafiə etmək, qanunvericiliyin təkmilləşdirilməsi barədə təkliflər vermək və informasiya-metodiki təminatı təşkil etmək funksiyalarını verir.

Metodoloji təminat və standartlarla əlaqələndirmə

Palatanın institusional inkişafının digər istiqaməti qiymətləndirmə yanaşma və metodlarının sistemləşdirilməsi, metodiki tövsiyələrin hazırlanması və üzvlərin informasiya təminatıdır. Qanunun 18.4.2-ci maddəsi qiymətləndirmə yanaşma və metodlarının təsdiqini Palatanın səlahiyyəti kimi müəyyən edir; 19.2.2-ci maddə bu təsdiqi Ümumi Yığıncağın səlahiyyətinə aid edir 20.2.6-cı maddə metodiki tövsiyələrin hazırlanmasını Rəyasət Heyətinin funksiyası kimi göstərir.

Ötən müddət ərzində IVS 2025-in Azərbaycan dilinə tərcüməsi başa çatdırılıb və beynəlxalq peşəkar əlaqələrin inkişafı Palatanın davamlı diqqətindədir. Tərcümənin metodoloji məqsədi milli qiymətləndirmə sənədlərinin hazırlanmasında vahid terminologiya və yanaşmalardan istifadəni təşviq etməkdir. Tərcümə sənədinin dərc və istifadə rejimi müvafiq müəlliflik hüquqları nəzərə alınmaqla müəyyən edilibdir.

Peşəkar inkişaf və əməkdaşlıq

Palata təlimlərin və davamlı peşəkar inkişafın təşkili, Dövlət İmtahan Mərkəzi ilə ixtisas imtahanları üzrə peşəkar əməkdaşlıq, dövlət qurumları, banklar və digər bazar iştirakçıları ilə institusional dialoq kimi istiqamətlərdə fəaliyyət göstərmişdir. Bu işlərin əsas məqsədi qiymətləndirmə nəticələrinin əsaslandırılması, qiymətləndiricinin müstəqilliyi və peşəkar məsuliyyətin gücləndirilməsidir.

Davamlı institusional inkişafın prioritetləri

Növbəti mərhələdə vahid elektron xidmətlər platformasının inkişafı, hesabatların hüquqa uyğun rəqəmsal qeydiyyatı və yoxlanılması, keyfiyyətə nəzarət prosedurlarının təkmilləşdirilməsi, bazar indekslərinin metodoloji şəffaflığının artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qiymətləndiricilərin metodiki bilik bazasının zənginləşdirilməsi strateji istiqamətlər kimi nəzərdən keçirilir. Bu istiqamətlər plan və hədəf xarakterlidir, icra vəziyyəti ayrıca fəaliyyət hesabatlarında göstərilir.

Hüquqi və informasiya mənbələri

“Qiymətləndirmə fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 8 dekabr 2023-cü il tarixli 1052-VIQ nömrəli Qanunu; xüsusilə 18–20, 26–27-ci maddələr. https://president.az/az/articles/view/62958